*hekayə*

# QAN QOXUSU

*(Əvvəli ötən sayımızda)*

Tavat arvad irəli keçib pillələri çətinliklə endi. Kişinin arxasında dayanmış Eldar ümidsiz halda anasına baxdı. Anası yaxınlaşıb yavaşca soruşdu:

- Eldar, bala, bir xəbər var?

Eldar barmaqlarını pərişan saçlarına daraq edib arxaya darayaraq dedi:

- Yoxdur, ay ana. Heç kim görməyib bu gün Nazlını.

- Necə yəni yoxdur? Bu gəlin iynə deyil ha, düşə samanlığa.

- Bilmirəm, ay ana, evə girək, görüm bəlkə məktub yazıb qoyub. Həmişə məndən xəbərsiz bir yana gedəndə yazıb qoyardı. Məni məlumatsız buraxmazdı. Tərslikdən bu gün işə gecikirdim deyə evin açarları da yadımdan çıxıb, götürməmişəm.

Qapı açıldı. Tavat əvvəl sağ ayağını atıb içəri keçdi. Eldar ustanı yola salıb, anasının arxasınca evə girərək qapını bağladı. Otaqlarda hər şey öz qaydasında idi. Gözə yad olan heç nə dəymirdi. Bircə həmişə divanın üstünə örtdükləri qırmızı ədyal yox idi. Ədyala ilk gündən gözü alışdığından o dəqiqə yoxluğunu anladı. Divana çökub başını əllərinin arasına aldı. İlk dəfə idi ki, çarəsiz qalmışdı. Nə edəcəyini bilmirdi. Anası da elə hey Allaha yalvarırdı.

* * *

Nazlı gözlərini güclə açanda əvvəl heç nə görmədi. Gözü torlu görürdü. Başından aldığı zərbələrin təsirindən üz-gözü şişmiş, ağzında dişləri qırılıb tökülmüşdü. Xeyli vaxtdan sonra harda olduğunu anlamaq üçün ətrafına baxdı. Bura qaranlıq bir zirzəmi idi. Zirzəminin qapısının kənarlarından gün işığı süzülürdü. Görünür, bu gün onun evdən gətirildiyi günün səhərisidir. Dartındı. Ayaqları kəndirlə möhkəm-möhkəm bağlanmışdı. Əlləri açıq idi. Boynu tavandan asılan ipə keçirilmişdi. Onu vahimə basdı. İlahi, yuxu idimi bu gördükləri. Dəhşətə gəldi. Qışqırmaq istədi, səsi xırıldadı. Kəndir boğazını kəsirdi. Dərisini o qədər sürtmüşdü ki, qanı axırdı. Ağzındakı dad gecə gördüyü yuxunu xatırlatdı. Az qaldı ki, gözləri hədəqəsindən çıxsın. Ay Allah, bu nə iş idi onun başına gəlirdi. Gözü qaraldı. Yarı bayğın vəziyyətdə çarəsiz-çarəsiz Eldarın adını sayıqladı.

Üstünə tökülən suyun təsirindən, bayğın gözlərini güclə açanda qarşısında Nemətі gördü. Nə qədər elədisə səsi yenə çıxmadı. Nemətin əlində yoğun taxta parçası varıydı. O, dayanmadan ağzı köpüklənə-köpüklənə Nazlıya nalayiq söyüşlər yağdırırdı. Hikkəsindən az qalırdı boynunun damarları partlasın.

- Əxlaqsız, soxdun papağımızı yerə. İlqar köpəyoğlu düz deyirmiş. Nahaq yerə inanmırdıq biz ona. Eldara qoşulub qaçdın, bir söz demədik. Dedik ailə qurub, bir övladları da olar gedərik, barışarıq. Amma sən demə fikrin başqa imiş. Eldardan da İlqara qaçmağı planlaşdırırmışsan. Nə yaxşı ki, İlqar sənin bu gözü dönmüşlüyünü gəlib bizə xəbər verdi. Başqası olsaydı adımızı ellə bir rüsvay edərdi. Arxamızca zurna çalırdı indi kəndin qoduxları. Qan gözünü o qədər bürümüşdü ki, heç bizi fikirləşmədin, ay namussuz? Demədin ki, qardaşlarım bəs bu töhmətlə nətəhər yaşayar? Eldar cəhənnəmə, demədinmi ki, qardaşlarım məni öldürər, qıçımı qırıb oturum xarabamda?

Bayaqdan hikkəsindən yer eşən Nemətin dediklərindən heç nə başa düşməyən Nazlı, İlqarın adını eşidəndə elə bil başına qaynar su töküldü.

İlahi, bu nə yalan idi düşmüşdü içinə. Bu necə dəhşətli şər idi, yaxılmışdı bəxtinə. Güclə eşidiləcək səslə: - Yalandır, - dedi.

Nemət əlindəki dəyənəklə ona elə bir zərbə vurdu ki, qırılan qabırğalarının səsini özü də eşitdi. Nazlı dəhşət içində qıvrıla-qıvrıla inildədi. Qarnında dəhşətli bir sancı başladı. Ayaqlarından aşağı ılıq qan süzüləndə Nazlı anladı ki, hamilə imiş. O anda yaşadıqları bütün ağrılarından da dəhşətli idi. Sanki özü eşidəcəyi səslə: - Körpəm! - deyə bildi.

- Kəs səsini, binamus. Hələ danışırsan da?- Nemət bağırdı. - İlqarın göndərdiyi bir xəbərlə gecə pəncərədə necə qaldığını, onun yolunu gözlədiyini, səhərə qədər yatmadığını, işığı açıq qoyduğunu gözlərimlə gördüm. Səhər də qapınızda idim, Eldarı tez tələsik işə yola saldığını qulaqlarımla eşitdim. Qapını döyənin İlqar olduğundan necə əmin idinsə, heç açanda kimliyini də soruşmadın. Hə, din də, niyə susursan? - dedi.

Nemətin sözlərini qırıq-qırıq eşidən Nazlı artıq ölmək istəyirdi. Daha heç nədən xəbəri olmadığını demək, özünü təmizə çıxarmaq da istəmirdi.

Natiq divarın dibində yerə oturub dizlərini qucaqlayaraq səssiz-səssiz bir nöqtəyə baxırdı. Dişlərini elə qıcamışdı ki, ətini kəsirdi. Amma bir kəlmə də dinmirdi.

- Sənə ölüm yaraşır deyib, - Nemət Nazlının ayağının altındakı oturacağı təpiklə vurub aşırdı. Nazlı xırıldadı. Əli ilə kəndiri tutub saxlamaq istədi. Saçları keçdi əlinə. Əlləri havada bir neçə dəfə yelləndi. Sonra yavaş-yavaş zəifləyən qolları qəfil yanına düşdü. Natiq əli ilə ağzını bərk-bərk bağlayıb bayıra çıxdı. Nemət isə hələ də əlindəki dəyənəyi ikiəlli bərkdən sıxıb saxlamışdı. Sanki Nazlının ölüsünü də döymək istəyirdi.

Nemət əlindəki dəyənəyi yerə atıb soyuqqanlılıqla bayıra çıxdı. Qardaşını bayırda görmədi. Səsləns də səsinə cavab verən olmadı. Maşına əyləşib ordan sürətlə uzaqlaşdı.

* * *

Bütün gecəni yatmayan Eldar, evdə var-gəl edir, anasının bayaqdan nə danışdığını eşitmirdi. Qəfil zəngə səksəndi. Tələsik dəstəyi qaldırıb: - Alo! - dedi. Cavab gəlmədi. – Alo!.. Alo!.. Eşidirəm, kimsiniz? - deyə təkrar qışqırdı. Xəttin o başından bir nəfər boğuq və həyəcanlı səslə: - Özünü çatdır, Nemət Nazlını öldürəcək, - dedi.

Eşitdiyi sözdən qulağı cingildədi, gözü qaraldı. Özünü toplayıb: - Necə yəni öldürəcək? Harda? Hardadı Nazlı? Kimsən sən? – təlaşla soruşdu. Xəttin o başındakı səs zirzəminin harda yerləşdiyini Eldara deyib dəstəyi asdı.

- Alo!.. Alo!.. Alo!..

Natiq telefonun dəstəyini tutduğu dəsmalı cibinə qoydu. Dəstəyi də yerinə asıb ordan uzaqlaşdı.

Eldar aldığı xəbərin təsirindən evdən elə çıxmışdı ki, Tavat arvad bir kəlmə soruşmağa macal da tapmamışdı. Mindiyi taksinin sürücüsünə yalvarırdı ki, sürətlə sürsün...

Eldar, zirzəminin qabağında dayanan maşından göz qırpımında özünü çölə atdı. İçəri girəndə gördüyü mənzərə başının tüklərini qabartdı. Nazlının boynuna keçirilmiş qalın kəndir onu havada saxlamışdı. Yanına düşən əllərində saçlarının tükləri varıydı. Sol tərəfində, yerdə qırmızı ədyalın üstündə yenicə doğmuş ana pişik ölmüş, düz ayaqlarının altında yenicə doğulmuş pişik balaları isə Nazlının barmaqlarının ucundan damcılayan, doğulmamış ölən körpəsinin qanını yalayırdılar...

* * *

Çayı buza dönmüşdü. Ayağa durub divardan tuta-tuta yatağına tərəf getdi. Son bir ili yatağa bağlı şəkildə yaşayırdı.

Bu hadisədən bir il iki ay beş gün ötürdü. Baxmayaraq ki, ədalət öz yerini tapmış, cinayətkarlar cəzasını almışdılar, amma Eldar hər gözünü qapayanda o mənzərəni təkrar-təkrar yaşayırdı. Bəlkə də nə vaxtsa gördüyü o dəhşətli mənzərəni yaddan çıxaracaqdı, amma ciyərlərinə hopmuş o qan qoxusunu heç vaxt unuda bilməyəcəkdi...

***Əsmər HÜSEYN XAN***

